

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 iyul 2026-cı il №48 (3050) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də, axşam radələrində Almaniya Federativ Respublikasına rəsmi səfərə gəlib.*

Berlin şəhərinin Brandenburq “Willy Brandt” Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Berlində Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harms ilə görüşüb.

Görüşdə Azərbaycan və alman iş adamlarının, həmçinin şirkətlərinin birgə fəaliyyətə marağının artdığı vurğulanaraq, bu cür fəaliyyətin institutlaşdırılması yolları müzakirə edilib.

Ənənəvi və alternativ energetika üzrə mövcud potensial, Orta Dəhliz daxil olmaqla bağlantı, nəqliyyat və logistika sahələrində imkanlar barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanda kənd təsərrüfatı ilə bağlı dövlət proqramının qəbul olunduğu xatırlanaraq, Almaniyanın bu sahədə aparıcı texnologiyalarının ölkəmizdə tətbiqi imkanlarına toxunulub, o cümlədən "ağıllı kənd təsərrüfatı" istiqamətində əməkdaşlığın perspektivləri qeyd edilib.



Söhbət zamanı, həmçinin ölkəmizin turizm potensialından istifadə olunması və qarşılıqlı maraq doğuran digər mövzulara dair fikir mübadiləsi aparılıb.

* * *

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə görüşmək üçün Berlindəki "Villa Borsig" iqamətgahına gəlib.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer dövlətimizin başçısını qarşılayıb.

Prezident İlham Əliyev burada xatirə kitabını imzalayıb.

Sonra Azərbaycan və Almaniya prezidentlərinin təkbətək görüşü keçirilib.

* * *

İyulun 21-də Berlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub.

Almaniya Prezidenti Azərbaycana səfərini məmnunluqla xatırlayıb.

Frank-Valter Ştaynmayer dünyada və regionda cərəyan edən hadisələr fonunda Azərbaycanı və Almaniyanı sabitlik adası kimi xarakterizə edib.

O, Azərbaycan-Ermənistan sülh gündəliyində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb.

Almaniya Prezidenti Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu xüsusi qeyd edib.

Dövlətimizin başçısı da öz növbəsində Frank-Valter Ştaynmayerin ölkəmizə səfərini məmnunluqla xatırlayıb.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rola toxunan Prezident İlham Əliyev ölkəmizin artıq Almaniya və Avstriyaya da qaz ixrac etdiyini deyib.

Söhbət zamanı Azərbaycan ilə Almaniya arasında münasibətlərin dostluq xarakteri daşıdığı qeyd edilib, iqtisadi və biznes əlaqələrinin inkişafı üçün geniş imkanların olduğu bildirilib, dövlətimizin başçısı Almaniyaya bu səfərinin ikitərəfli əməkdaşlığın inkişafına ciddi təkan verəcəyinə əminlik ifadə olunub.

(Ardı 2-ci səhifədə)

## ANAMA: Ötən həftə 1959,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyulun 13-19-da icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 200, tank əleyhinə 28 mina və 630 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1959,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




## Qəhrəmanlıq ənənəsini yaşadan Azərbaycan qadınları

Elə peşələr var ki, onların sahibləri vəzifələrini yerinə yetirərkən nəfəs aldıqları belə hiss olunmamalıdır. Onlar səssiz, diqqətli, iti baxışlı və sonsuz səbir sahibi olmalıdırlar. Bəzən saatlarla, hətta günlərlə bir nöqtədə hərəkətsiz qalaraq doğru anı gözləyirlər. Onların harada xidmət etməsinin fərqi yoxdur, meşədə, dağda, çöldə və ya ucqar bir ərazidə. Məkan dəyişə bilər, amma məqsəd dəyişmir - düşməni zərərsizləşdirmək.

Bu peşəyə yiyələnmək uzun və ağır hazırlıq tələb edir. Bunun üçün fiziki güc, möhkəm iradə, peşəkar bilik və psixoloji dözüm çox vacibdir. Bəzən günlərlə susuz və yeməksiz qalmalı olurlar.

(Ardı 8-ci səhifədə)



## Tarixin daş yaddaşı: “Gələrsən-görərsən” qalası



Azərbaycanın orta əsr müdafiə tikililəri arasında "Gələrsən-görərsən" qalası həm yerləşdiyi mövqeyinə, həm də tarixi hadisələrlə bağlılığına görə seçilir. Şəki rayonunun Kiş kəndi yaxınlığında, Qaratəpə dağının sıldırım yamacında yerləşən bu qala əsrlər boyu bölgənin müdafiə sisteminin mühüm hissəsi olmuşdur. Qalanın ətrafına nəzər saldıqda onun inşası üçün seçilən yerin təsadüfi olmadığı aydın görünür. Təbii maneələrlə əhatə olunan ərazi müdafiəni asanlaşdırır, həmçinin ətraf yollar üzərində müşahidə aparmağa imkan verirdi. Bu xüsusiyyətlər "Gələrsən-görərsən" qalasını yalnız memarlıq abidəsi deyil, həm də hərbi-strateji baxımdan düşünülmüş istehkam kimi qiymətləndirməyə əsas verir. Qalanın inşa tarixi haqqında tarixşünaslıqda dəqiq fikir yoxdur. Bəzi müəlliflər onu XV əsrə aid edir, digər tədqiqatçılar isə istehkamın daha qədim dövrdə salındığını, sonrakı əsrlərdə bərpa və möhkəmləndirmə işlərinin aparıldığını qeyd edirlər.

(Ardı 8-ci səhifədə)

## Yaşar Güler: Türk hərbçilərin mövcudluğu Kiprin təhlükəsizliyi və sabitliyi üçün kritik əhəmiyyətə malikdir



Ankara xoşməramlılıq nümayiş etdirməkdən və beynəlxalq hüquqa uyğun olaraq Kipr məsələsinə ağlabatan həll yolları axtarmaqdan heç vaxt çəkinməyib. Türkiyənin beynəlxalq təşəbbüslərə uzun müddət müsbət yanaşmasına baxmayaraq, Kiprdəki münaqişənin həlli istiqamətində atılan addımlara hələ də lazımi reaksiya görməyib. Biz Kipr türklərinin suveren haqlarını və bərabər beynəlxalq status hüququnu tanımaqda israrlıyıq.

AZƏRTAC xəbər verir ki, bu bəyanatı Türkiyənin milli müdafiə naziri Yaşar Güler Şimali Kipr Türk Cümhuriyyətində (ŞKTC) yerləşən Türkiyə Silahlı Qüvvələrinin 39-cu mexanikləşdirilmiş piyada diviziyasının əsgərləri qarşısında çıxış edərkən verib.

Müdafiə naziri əmin olduğunu bildirib ki, türk qoşunlarının ŞKTC-də davamlı mövcudluğu adada təhlükəsizlik və sabitlik üçün vacibdir.

Türkiyəli nazir bir sıra beynəlxalq təşkilatların, xüsusən də Avropa Parlamentinin Kiprlə bağlı mövqeyini tənqid edib. “AP-nin son qətnaməsində Türkiyəyə qarşı əsassız ittihamlar var və heç bir hüquqi, tarixi və ya mənəvi əsas yoxdur. Lobbi təsiri ilə formalaşan qərəzli yanaşmaların Ankara üçün heç bir dəyəri yoxdur. Biz bu cür qətnamələri qətiyyətlə rədd edirik”, - deyə Güler vurğulayıb. O qeyd edib ki, “subyektiv siyasi sənədlər Kiprin tarixi reallığını əvəz edə bilməz və Türkiyənin qanuni hüquqlarını şübhə altına almayacaq”.



“Avropa Parlamentinin mövqeyi Aİ-nin özünün qərəzsiz imicini sarsıdır. Tarix siyasi arqumentlər vasitəsilə deyil, sənədlər və həqiqətlərlə yazılır”, - deyən nazir, həmçinin Kipr problemini “Türkiyənin milli məsələsi” adlandırıb.

Güler qeyd edib ki, yunan Kiprinin Aİ-yə qəbul edilməsi ilə Brüssel “Kipr məsələsində obyektiv aktor statusunu böyük ölçüdə itirib”.

# Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri



(Əvvəli 1-ci səhifədə)

Bu səfər zamanı Azərbaycan-Almaniya əlaqələrinin strateji mahiyyət kəsb etməsi ilə əlaqədar Prezident İlham Əliyev və Kansler Fridrix Mertsin imzalayacağı “Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə”nin əhəmiyyəti vurğulanıb.

Görüşdə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Bakıya səfəri xatırlanıb, bu xüsusda Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı qeyd edilib.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti və bu dəhlizdə Azərbaycanın önəmli roluna toxunulub, Yaxın Şərqdə yaranmış vəziyyət barədə fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 21-də Berlində rəsmi qarşılanma mərasimi keçirilib.

Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts dövlətimizin başçısını qarşılayıb.

Almaniya nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Federal Kansler Fridrix Mertsə təqdim edilib.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına və Federal Kanslerə raport verib.

Azərbaycan Respublikasının və Almaniya Federativ Respublikasının Dövlət himnləri səslən-dirilib.

Prezident İlham Əliyev və Federal Kansler Fridrix Merts fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

* * *

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts ilə təkbətək görüşü keçirilib.

Sonra görüş geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan ilə Almaniya arasında strateji gündəliyə dair imzalanmış sənədin əhəmiyyəti vurğulanıb. Həmçinin sənəddən irəli gələrək iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qrupların yaradılması və bu istiqamətdə sistemli işin aparılmasının vacibliyi qeyd edilib.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol qeyd olunub, həmçinin Orta Dəhlizin əhəmiyyəti vurğulanıb. Eyni zamanda, iki ölkə arasında əlaqələrin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunuldu və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Federal Kansler Fridrix Merts Azərbaycanla Ermənistan arasında sülh gündəliyi istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. O, Almaniyanın regionda sülhün gücləndirilməsi üçün səylərini əsirgəməyəcəyini və hər zaman buna dəstək verməyə hazır olduğunu bildirib.

* * *

İyulun 21-də Berlində Almaniya-Azərbaycan sənədlərinin imzalanması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts “Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə”ni imzalayıblar.

Tədbirdə, həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamə imzalanıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts Berlində mətbuata bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

Əvvəlcə Almaniyanın Federal Kansleri bəyanatla çıxış edib.

### Kansler Fridrix Mertsin bəyanatı

- Xanımlar və cənablar, xoş gəlmisiniz.

Mən bu gün Berlində Azərbaycan Prezidenti İlham Əliyevi salamlamaqdan olduqca məmnunam. Bu gün biz hələ mart ayında planlaşdırılan səfərinizi həyata keçiririk. Lakin səfəri İranla müharibə səbəbindən təxirə salmalı olduq.

Bununla belə, səfər, həmçinin göstərir ki, ölkələrimiz bu günün əsas böhranlarından və müharibələrindən yan keçə bilmir. Bu, həm Orta Şərqə, həm Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsinə aiddir. Həmin müharibələr Almaniyaya və Azərbaycana onların təhlükəsizliyi və iqtisadi maraqları baxımından böyük təsir göstərib. Baxmayaraq ki, hər iki münaqişə təfərrüatlarına görə fərqli ola bilər. Biz istənilən halda danışıqlar yolu ilə həll variantlarını təşviq edirik. Bizi eyni qənaət birləşdirir ki, yekun nəticədə yalnız danışıqlar yolu ilə nizamlama uzunmüddətli sülhü, təhlükəsizliyi və sabitliyi gətirə bilər.

Cənab Prezident, Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik bizim üçün də zəruridir. Almaniya və Avropa İttifaqı həmin geosiyasi baxımdan mühüm bölgədə davamlı dincliyə nail olmaqda çox maraqlıdırlar. Bu səbəbdən, cənab Prezident, biz Sizi Almaniyada salamlamaqdan xüsusi olaraq məmnunuq. Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanmasına nail olmağınız münasibətilə Sizi təbrik edirik. Bu, tarixi razılaşmadır. Onilliklər davam etmiş münaqişəni onun sayəsində aradan qaldırmaq fürsəti yaranır. Alman və Avropa perspektivindən nəyi edə bilsək, bundan şad olarıq.

Bölgədə daha böyük sabitlik ölkələrimiz arasında iqtisadi sahədə də geniş əməkdaşlıq üçün yeni imkanlar yaradır. Çox şadam ki, ölkələrimiz arasında münasibətlər yüksələn xətlə inkişaf edir. 2025-ci ilin yazında Prezident Ştaynmayer Azərbaycana səfər etmiş ilk alman dövlət başçısı oldu. Bu il, həmçinin parlamentlərimiz arasında intensiv mübadilələr oldu. Bu gün Birgə Bəyannaməni imzalamaqla biz ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsinin təməl daşını qoyduq. Həmçinin mərasim zamanı Siz də şahidi oldunuz, Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması ilə bağlı razılıq əldə edildi.



Bu, hər iki ölkənin şirkətlərinə verilən mühüm işarədir. Biz Almaniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə ciddi yanaşırıq. Hazırkı böhran şəraitində xam neftin və Cənub Qaz Dəhlizi ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Cənab Prezident, biz bunları təfərrüatı ilə müzakirə etdik. Biz Azərbaycanla əməkdaşlıq yolu ilə enerji təchizatımızı daha da şaxələndirmək istəyirik. Bu gün biz, həmçinin bərpaolunan enerji və hidrogendən istifadənin genişləndirilməsini müzakirə etdik.

Biz, həmçinin Azərbaycanın sərmayə proqramına aid təkliflərinə gəldikdə konstruktiv müzakirələr aparırıq. Bu proqram Azərbaycanda fəaliyyət göstərən alman şirkətləri üçün yeni imkanlar aça bilər. Cənubi Qafqazın Avropa ilə Asiya arasında körpü kimi əhəmiyyəti də artır. Yeni nəqliyyat və ticarət dəhlizləri birgə istifadə etmək istədiyimiz iqtisadi potensialı yaradır. Cənab Prezident, bildiyiniz kimi, kiçik və orta müəssisələr üçün uzun məsafədə sərmayə yatırmaq çox zaman asan olmur. Yerlərdə münasib çərçivə şərtləri hər zaman olduqca vacibdir.



Həmin məsələləri biz bu gün müzakirə etdik. Bu gün imzalanmış iki bəyannamə ilə biz irəliyə doğru böyük addım atdıq. Cənab Prezident, Berlinə səfər etdiyinizə görə Sizə bir daha dərindən minnətdaram. Mən Azərbaycan ilə Almaniya arasında davamlı məhsuldar əməkdaşlığı səbirsizliklə gözləyirəm.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Sağ olun, cənab Kansler. İlk növbədə, mənə göstərdiyiniz qonaqpərvərliyə görə və rəsmi səfərə dəvət etdiyiniz üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Yenidən ölkənizdə olmağımdan çox məmnunam. Əminəm ki, bu gün imzalanmış sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq. Eyni zamanda, iqtisadi əlaqələrin genişləndirilməsi üçün bu gün imzalanmış Birgə Bəyannamə əminəm ki, çox fəal işləyib yaxşı nəticələr hasil edəcəkdir.

İkitərəfli gündəliyimiz kifayət qədər genişdir. Biz bu barədə Sizinlə həm təkbətək görüşdə, həm də geniş tərkibdə görüş əsnasında fikir mübadiləsi aparmışıq. Almaniya Avropa İttifaqının aparıcı ölkəsi kimi Cənubi Qafqazda öz təsirini artırmaqdadır. Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir.

Bir çox Almaniya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir. Fəal iş görən şirkətlərin sayı 200-dən çoxdur. Əminəm ki, bugünkü səfərdən sonra onların sayı daha da artacaq. Qarşılıqlı sərmayə qoyuluşu məsələləri müzakirə edilir. Alman şirkətlərinin daha geniş çərçivədə Azərbaycanda fəaliyyəti üçün konkret təkliflər irəli sürülmüşdür.

Siz enerji sahəsindəki əməkdaşlığa toxundunuz. Bu istiqamətdə də müsbət nəticələr var. Bu ildən başlayaraq Azərbaycan öz təbii qazını Almaniyaya ixrac etməyə başlamışdır. Beləliklə, bizim qazımız bu gün Avropa İttifaqına üzv 10 ölkəyə çatdırılır və şübhəsiz, bu, enerji təhlükəsizliyi üçün çox böyük töhfədir. Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə yaşıl enerjisini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır.

Bağlantılarla və tranzit imkanları ilə bağlı da Azərbaycan-Almaniya əməkdaşlığının çox böyük əhəmiyyəti var. Çünki Almaniya şirkətləri bu istiqamətdə çox böyük uğurlar əldə edib. Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir. Keçən il Orta Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla, Azərbaycan bir növ Orta Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır. Bir çox istiqamətlər üzrə konkret fəaliyyət planı nəzərdə tutulur. Bu gün imzalanmış Bəyannamənin icrası ilə bağlı fikir mübadiləsi əsnasında konkret təkliflər irəli sürülmüşdür. Bir neçə işçi qrup yaradılacaq ki, bu gün imzalanmış sənədlər tezliklə həyatda öz əksini tapsın.

Eyni zamanda, Almaniyanın Cənubi Qafqazdakı sülh prosesinə verdiyi töhfəyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması, Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı və imzası ilə Birgə Bəyannamənin imzalanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu. Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi. Bu gün Azərbaycan tərəfindən təchiz edilmiş benzin və dizel yanacağı Ermənistanın enerji təhlükəsizliyinə çox böyük töhfədir. Xüsusilə nəzərə alsaq ki, bu gün neft məhsullarının ixracı və idxalı ilə bağlı bir çox problemlər müəyyən səbəblərə görə mövcuddur və eyni zamanda, Azərbaycan ərazisindən Ermənistana tranzit yüklərin göndərilməsi də artıq geniş vüsət alıb. Bu günə qədər 40 min tondan çox tranzit yüklər Azərbaycan ərazisindən keçib.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri



(Əvvəli 2-ci səhifədə)

Yəni biz çox tarixi bir dövr yaşayırıq. Torpaqları uzun illər işğal altında olan Azərbaycan işğala öz gücü ilə son qoydu, ərazi bütövlüyünü bərpa etdi, suverenliyini bərpa etdi. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini özü icra etdi, Ermənistana sülh təklif etdi və müsbət cavab aldı. Ona görə yenə də deyirəm, Almaniya hökumətinin də bu sahədə rolunu biz yüksək qiymətləndiririk. Danışıqlar prosesində, o cümlədən Almaniyada xarici işlər nazirləri səviyyəsində görüşlər də keçirilmişdir.

Son olaraq, Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunmaq istəyirəm. Bu il biz həm Avropa İttifaqı Şurasının Prezidenti cənab Koştanın, həm Avropa Komissiyasının Prezidenti xanım Fon der Lyayenin Azərbaycana səfərlərinin şahidi olmuşuq. Bu səfərlərin çox böyük siyasi mənası var. Bu, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri daha da gücləndirəcək. Almaniya Avropa İttifaqına üzv olan ölkələr arasında lider olduğu üçün burada təbii ki, həm Almaniyanın rolu çox böyükdür, eyni zamanda, gələcək əməkdaşlıq üçün də əminəm ki, Almaniya öz səylərini göstərəcək.

Bir daha, cənab Kansler, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm və Sizi də Sizin üçün münasib olan vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

* * *

Daha sonra jurnalistlərin suallarını cavablandırılıb.

**Roman Qonçarenko** ("Deutsche Welle"): Sualım Rusiyanın Ukraynaya qarşı müharibəsi ilə bağlıdır. Cənab Federal Kansler, bir neçə gün əvvəl alman mediası yazmışdı ki, Bakıda qeyri-rəsmi alman-rus görüşü baş tutub. Həmçinin qeyd olunur ki, hökumət koalisiyasında olan partiyaların keçmiş yüksəkrütbəli siyasətçiləri görüşdə iştirak edib. Həmin görüşün nəticəsi barədə heç bir məlumat verilməyib. Bununla bağlı burada Berlində ekspertlər arasında iki rəy var. Bəziləri söyləyirlər ki, bu cür görüşlər pərdəarxası olaraq faydalıdır və heç bir ziyan vura bilməz. Digərləri onları tənqid edir və mübahisələndirirlər ki, həmin görüşlər əks nəticə verə bilər. Çünki onlar Rusiyaya zəiflik haqqında işarə göndərə bilərlər. Buna necə baxırsınız?

Bir sualım da Prezidentədir. Cənab Prezident, Siz bu yaxınlarda bildirdiniz ki, Azərbaycan ilə Rusiya arasında münasibətlər yenidən tam normallaşıb. Rusiyanın Ukraynaya qarşı müharibəsinə son qoymaq üçün Siz Rusiya Prezidenti Vladimir Putinə nə tövsiyə edərdiniz? Sağ olun.

**Kansler Fridrix Merts:** Mən buna çox sadə cavab verə bilərəm. Bu cür görüş haqqında mənim məlumatım yoxdur. Aylar ərzində biz Prezident Putini danışıqlara başlamaq üçün inandırmağa çalışdıq. Avropa səviyyəsində Ukrayna ilə birgə müzakirələr üçün təklifləri dəfələrlə irəli sürmüşük. Prezident Putin bu cür danışıqlarda iştirakdan imtina edir. Buna görə mən, əfsuslar olsun ki, son 14 ay ərzində söylədiklərimi yenə və yenə təkrar edirəm.

Bu müharibəni bitirmək yalnız Rusiya hökuməti və Rusiya Prezidenti ilə bağlıdır. Danışıqlara getmək və lazım gələrsə, sülh danışıqlarına başlamaq yalnız ondan asılıdır. O, bundan imtina etməkdə davam edir. Nə qədər davam edərsə, Rusiya təcavüzü qarşısında Ukraynaya həyat uğrunda mübarizədə dəstək verməkdən başqa seçim yoxdur. Biz bunu edəcəyik. Biz bunu Avropa səviyyəsində əlaqələndirərək edəcəyik. Mən həmin müharibə, onun səbəbləri, gedişatı və mümkün sonu ilə bağlı oxşar mövqeyini bizimlə bölüşdüyünə görə Prezident Əliyevə olduqca minnətdaram. Bunu elə indicə bildirdim.

**Prezident İlham Əliyev:** Bakıda keçirilmiş dediyiniz görüşlərlə əlaqədar deyə bilərəm ki, bu məlumatı biz "The Times" qəzetindən öyrəndik. Bizim bundan xəbərimiz yox idi. Təbii ki, belə mötəbər mətbu orqanda çıxan məqaləyə biz diqqətlə yanaşaraq araşdırma apardıq və dünən mən Berlinə gəlməzdən öncə Azərbaycan Dövlət Sərhəd Xidmətindən məlumat istəmişəm ki, "The Times" qəzetində adları keçən şəxslər Azərbaycanda bir vaxtda olublar, yoxsa yox. Sizə onu deyə bilərəm ki, bu məlumat təsdiqləndi. İyulun 12-də Berlin-Bakı reysi ilə iki nəfər tanınmış şəxs, - birinin xanım Merkelin administrasiyasının rəhbəri olduğu haqqında məlumat var, - cənab Pofala və cənab Platsik Bakıya gəlmişdilər və iyulun 14-də Bakıdan Berlinə geri qayıtmışdılar. Eyni zamanda, ayın 12-də Rusiyanın keçmiş Baş naziri cənab Zubkov və Rusiya Prezidenti yanında Vətəndaş Cəmiyyəti Şurasının rəhbəri cənab Fadeyev Moskvadan Bakıya gəlmişdilər və biri ayın 13-də, o biri isə ayın 14-də Bakıdan ayrılmışdılar. Bizə bu barədə nə Almaniyadan, nə Rusiyadan hər hansı bir xəbər daxil olmamışdı. Yəni sadəcə olaraq, bizim ərazimiz bizdən xəbərsiz istifadə edilmişdir. Belə bir görüşün olub-olmaması ilə bağlı da mən konkret bir şey deyə bilmərəm. Çünki biz bunu görməmişik. Amma dediyim bu uçuş statistikası deməyə əsas verir ki, belə bir gizli görüş Bakıda keçirilmişdir. Əgər bu görüş Ukrayna-Rusiya müharibəsini sonlandıracaqsa, əlbəttə ki, biz bunu alqışlayırıq.

O ki qaldı, ikinci suala, bilirsiniz, mən o vaxt məsləhət verirəm ki, bu məsləhət məndən xahiş edilir. Mən bu yaxınlarda Qarabağın Şuşa şəhərində Qlobal Media Forumunda oxşar bir suala üzləşmişdim və demişdim ki, istənilən halda müharibə dərhal dayandırılmalıdır. Bizim əsas məqsədimiz bundan ibarətdir ki, bu müharibə dayansın və bölgədə sülh təmin edilsin.

**Vüqar Seyidov** (AZƏRTAC): Mən Azərbaycan Dövlət İnformasiya Agentliyini - AZƏRTAC-ı təmsil edirəm. Sualım Sizədir, Kansler Merts. Orta Dəhlizin Asiya ilə Avropa arasında ticarət marşrutu kimi əhəmiyyəti get-gedə artır. Azərbaycan onun inkişafında mühüm rol oynayır. Avropa İttifaqında Almaniyanın aparıcı iqtisadi qüvvəsini nəzərə alaraq, bu marşrut boyunca infrastrukturu və logistikanı gücləndirmək üçün iki hökumət Sizin fikrinizcə, necə əməkdaşlıq edə bilər? Sağ olun.





**Kansler Fridrix Merts:** Suala görə çox sağ olun. Həmin məsələni dəqiqliklə müzakirə etdik. Biz, həmçinin onu Birgə Bəyannaməmizin mövzusuna çevirdik. Prezident Əliyev həmin infrastrukturun genişləndirilməsi barədə mənə maraqlı məlumat verdi. Biz əməkdaşlığımızı, xüsusən də enerji təchizatı sahəsində gələn illərdə intensivləşdirməyi arzulayırıq. Almaniyanın nöqteyi-nəzərindən, bizim idxalın, o cümlədən qaz idxalının şaxələndirilməsində böyük marağımız var.

Mən həmin məsələni bəyanatımda qeyd etdim. Azərbaycan enerjini artıqlaması ilə istehsal edən regiondakı az sayda ölkələrdən biridir. Bu o deməkdir ki, Azərbaycan enerjini istehlak etdiyindən daha çox istehsal edir. Bu baxımdan Azərbaycan Almaniyanın enerji təchizatının təmin edilməsində bizim üçün maraqlı tərəfdaşdır. Bu, xüsusən də Cənubi Almaniyaya aiddir, çünki həmin bölgəyə nəql üçün infrastruktur artıq inkişaf edib və ya genişləndirilə bilər. Buna görə bu, maraqlı müzakirə idi və həmçinin Azərbaycan ilə Almaniya arasında yeni perspektivlər açır.

**Andreas Rinke** ("Reuters"): Sualım Prezidentədir. Kanslerin söylədiklərinin davamı olaraq, bilmək istərdim, cənab Prezident, Azərbaycan hansı həcmdə qaz və nefti Almaniyaya təchiz etməyə hazırdır, buna qadirdir və arzulayır? Təchizat bu ilin əvvəlində başlayıb, lakin ola bilsin, hələ gözəçarpan əlavə potensial da var. Siz hansı həcmi nəzərdə tutursunuz?

**Prezident İlham Əliyev:** Neft təchizatına gəldikdə isə deyə bilərəm ki, Almaniya ilə bizim ümumi ticarət dövriyyəmiz keçən il təqribən, 1,5 milyard dollar ətrafında idi. Bunun böyük hissəsi Almaniyanın Azərbaycana ixracıdır, qalan hissə isə bizim ixracımız. Bizim ixracımızın da əsas hissəsi xam neftdir. Yəni hesab edirəm ki, Azərbaycan təxminən bir neçə yüz milyon dollar səviyyəsində xam neft təchiz edir və nə qədər lazımdır, o qədər də təchiz edə bilər - həm daxili mənbələrdən, həm də bizim enerji şirkətimiz SOCAR-ın treydinq bölməsindən. Yəni burada hər hansı bir problem yoxdur.

O ki qaldı, təbii qaz məsələlərinə, qeyd etdiyim kimi, biz bu ildən başlayaraq Almaniyaya təbii qaz satmağa başlamışıq. Bizim keçən il ümumi qaz ixracımız 25 milyard kubmetr olub. Onun yarısı Avropa İttifaqı ölkələrinə ixrac edilib. Bildiyimə görə, Almaniya şirkətləri ilə 10 illik kontrakt imzalanmışdır və ilkin həcm 1,5 milyard kubmetrdir. Ancaq bu, təbii ki, arta bilər. Bunun üçün bir neçə məsələ öz həllini tapmalıdır. Birincisi, bizə müraciət olmalıdır, yəni həcmin artırılması üçün. İkincisi, mövcud qaz infrastrukturu genişləndirilməlidir. Çünki bu gün həm TANAP, həm TAP tam gücü ilə işləyir və bu kəmərlərdə boş yer qalmayıb. Avropa məkanında yeni interkonnektorlar lazımdır. Əlbəttə ki, buna vəsait lazımdır. Əsas problemlərdən biri də odur ki, Avropa bankları, xüsusilə Avropa İnvestisiya Bankı yaşıl gündəliyə görə neft-qaz layihələrinə maliyyə dəstəyini dayandırmışdır. Beləliklə, bu gün infrastrukturu - Avropanı qazla təchiz edən infrastrukturu genişləndirmək üçün biz başqa mənbələrdən kreditlər almalıyıq. Yaxşı olardı ki, Avropa bankları öz qərarlarına yenidən baxsınlar. Xüsusilə nəzərə alsaq ki, bu gün Yaxın Şərqdə böhran əfsuslar olsun ki, dərinləşir və ənənəvi təchizat zəncirləri qırılıb. Nəzərə alsaq ki, Rusiyanın neftayırma zavodlarının sıradan çıxarılması ilə əlaqədar ənənəvi müştərilərə Rusiya istədiyi qədər neft məhsullarını ixrac edə bilmir. Bütün bu sonu bilinməyən hadisələr davam edir. Ona görə hesab edirəm ki, yaşıl gündəliyi nəzərə almaq şərti ilə bu məsələlərə yenidən baxıla bilər ki, Avropa bankları da neft-qaz layihələrinin işlənməsinə, neft-qaz infrastrukturunun tikintisinə və genişləndirilməsinə vəsait ayırsın. Belə olan halda Azərbaycan Avropa məkanına, o cümlədən Almaniyaya öz qaz ixracını böyük dərəcədə artıra bilər.

**Orxan Amaşov** ("AnewZ"): Sualım əvvəlki sualın məntiqinə uyğundur və Azərbaycan ilə Almaniya arasında enerji əməkdaşlığına aiddir. Xüsusən də Azərbaycan Almaniyaya bu il təbii qazı təchiz etməyə başlamışdır. Kansler, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu Avropaya qaz təchizatı baxımından necə dəyərləndirirsiniz? Çox sağ olun.

**Kansler Fridrix Merts:** Buna cavab verməkdən məmnunam. Dörd il yarım əvvəl Rusiyadan qaz idxalını dayandırdıqdan sonra biz təbii ki, yeni təchizat mənbələrini axtarmağa başladıq və Azərbaycan bu baxımdan mühüm rol oynayır. Bu, iqtisadi baxımdan bizim üçün maraqlı perspektivdir. Biz, həmçinin digər təchizat mənbələrini də axtardıq və müəyyən etdik. Bu baxımdan mən bir daha Prezident Əliyevə təşəkkür edirəm ki, bu məsələni bu gün müzakirə edə bildik və Azərbaycandan daha böyük həcmdə qazın əldə olunması imkanlarını araşdırdıq. Bu, həmçinin birgə razılaşmamızın bir hissəsidir və Azərbaycanla aparacağımız növbəti müzakirələrin mövzusu olaraq qalacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi Prokurorluqda əməliyyat müşavirəsi keçirilib







Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2026-cı ilin birinci yarımili ərzində görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluqdan məlumat verilib.

Bildirilib ki, əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, nəhəng tarixi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Kollegiya iclası başlamamışdan öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, Vətənimizin ərazi bütövlüyü uğrunda yaralananlara şəfa diləyiblər.

Hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-mayoru Bəhruz Əhmədov, əvvəlcə dünyaşöhrətli siyasətçi, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin müdrik siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq yeni müstəvidə yüksək məharətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 23 ilə yaxın müddət ərzində ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan bəhs edib. Vurğulanıb ki, qazanılan uğurlara Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm töhfələr verir.

Hərbi prokuror bildirib ki, ötən il kimi, 2026-cı ilin birinci yarımili də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun, o cümlədən Hərbi Prokurorluğun uğurları ilə yadda qalıb. Hərbi Prokurorluq orqanlarının fəaliyyəti səmərəli olmaqla, qanunun aliliyinin təmin olunmasına, o cümlədən Silahlı Qüvvələrdə hüquqazidd əməllərin qarşısının alınmasına yönəlib. Qeyd olunub ki, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam, obyektiv araşdırılması və tələb edilən səviyyədə prosessual rəhbərlik nəticəsində qeydə alınmış cinayətlərin ümumilikdə 99 faizi açılıb.

Bundan başqa diqqətə çatdırılıb ki, qanunçuluğun daha da möhkəmləndirilməsində Hərbi Prokurorluqla digər hərbi qurumlar arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin də böyük əhəmiyyəti olub. Bütün bunların nəticəsində də hesabat dövründə qeydə alınmış cinayətlər ötən ilin birinci yarımili ilə müqayisədə 0,9, qeyri-hərbi cinayətlər isə 4,9 faiz azalıb. O cümlədən 2025-ci ilin birinci yarımili ilə müqayisədə 2026-cı ilin birinci yarımilində qeydə alınmış hərbi xidmətdən yayınma cinayətləri ümumilikdə 21,2, qulluğa səhlənkar yanaşma cinayətləri 9,1, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 50, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələbetmə cinayətləri 75, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma cinayətləri 16,7, xuliqanlıq cinayətləri 71,4, rüşvətalma və rüşvətvermə cinayətləri isə 42,3 faiz azalıb.

Bildirilib ki, dövlətin, eləcə də fiziki və hüquqi şəxslərin mənimsənilmiş və ya israf edilmiş əmlakları ilə bağlı ziyanın ödətdirilməsi istiqamətində də əhəmiyyətli nailiyyətlər əldə edilib.

Müraciətlərə baxılması işinin səmərəliliyinin artırılması da qeyd olunaraq, Hərbi Prokurorluğun "962 Etimad xətti" əlaqə mərkəzinə 400-dən artıq müraciətin daxil olduğu bildirilib.

Sonra məruzə ətrafında çıxışlar olub. Çıxışçılar hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

İclasda qazanılmış uğurlarla yanaşı, bəzi nöqsanlara da yol verildiyi bildirilərək, onların təhlil olunmaqla aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi tələb edilib.

Dövlətimizin başçısının prokurorluğa olan yüksək qayğısını minnətdarlıqla vurğulayan Hərbi prokuror, Baş prokuror Kamran Əliyevin hərtərəfli dəstəyi ilə hərbi prokurorluq əməkdaşlarına göstərilən diqqətdən, onlara yaradılmış yüksək iş və məişət şəraitindən də bəhs edib.

Kollegiya iclasına yekun vuran Hərbi prokuror bildirib ki, Hərbi Prokurorluğun kollektivi milli maraqların, dövlətçilik prinsiplərinin və qanunçuluğun qorunması, Silahlı Qüvvələrdə hərbi intizamın daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıraraq, üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcək.

# "Əldə olunan bilik və vərdişlər gələcək xidmətdə qarşıya qoyulan vəzifələrin peşəkar səviyyədə icrasına mühüm töhfə verəcək"







***Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən, Hərbi Dəniz Qüvvələrində (HDQ) "Təməl dalğıc kursu"nun buraxılış mərasimi keçirildi.***

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Buraxılış mərasimində çıxış edən 2-ci dərəcəli kapitan Vadim İsmayılov məzunları təbrik edərək bildirdi ki, hazırlıq dönəmi həm fiziki, həm də psixoloji baxımdan ciddi sınaq mərhələsi olub. İştirakçılar qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən əzmkarlıq, intizam və yüksək məsuliyyət nümayiş etdiriblər.

Zabit, həmçinin qeyd etdi ki, "Təməl dalğıc kursu" xüsusi bilik və peşəkarlıq tələb edən mühüm ixtisas istiqamətlərindən biridir. 2-ci dərəcəli kapitan V.İsmayılov təlimlər zamanı qazanılan bilik və bacarıqların gələcək xidmətdə mühüm əhəmiyyət daşıyacağını vurğulayaraq məzunlara uğurlar arzuladı.

Qeyd olundu ki, hazırlıq müddətində iştirakçılar müxtəlif mürəkkəblik dərəcəsinə malik nəzəri və praktiki məşğələlərə cəlb olunub, sualtı fəaliyyət, təhlükəsizlik qaydaları, dalış texnikası və xüsusi tapşırıqların icrası üzrə hazırlıq keçiblər. Kurs zamanı iştirakçılar yüksək fiziki hazırlıq, psixoloji dözümlülük, soyuqqanlılıq və çevik qərarvermə bacarığı nümayiş etdiriblər.

Vurğulandı ki, kursun keçirilməsinin əsas məqsədi hərbi qulluqçuların sualtı şəraitdə fəaliyyət üzrə peşə hazırlığının artırılması, dalış avadanlıqlarından təhlükəsiz və səmərəli istifadə bacarıqlarının formalaşdırılması, sualtı oriyentasiya, axtarış-xilasetmə, sağqalma və taktiki tapşırıqların icrası üzrə nəzəri bilik və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

Daha sonra çıxış edən 3-cü dərəcəli kapitan Elnur Xəlilov bildirdi ki, hazırlığın əsas məqsədi həm də hərbi qulluqçuların fəaliyyət bacarıqlarını inkişaf etdirmək və onları müxtəlif təyinatlı tapşırıqları təhlükəsiz, dəqiq və operativ şəkildə yerinə yetirməyə hazırlamaqdır. "Kurs proqramı nəzəri hazırlıqla yanaşı, intensiv praktiki məşğələləri də əhatə edib. İnanırıq ki, əldə olunan bilik və vərdişlər gələcək xidmətdə qarşıya qoyulan vəzifələrin peşəkar səviyyədə icrasına mühüm töhfə verəcək".

Kursu müvəffəqiyyətlə başa vuran iştirakçılara sertifikatlar təqdim olunduqdan və xatirə şəkli çəkdirildikdən sonra kurs birincisi baş leytenant Hamlet Atayev ilə həmsöhbət olduq. Zabit bildirdi ki, dalğıc hazırlığı onun üçün yeni və faydalı təcrübə olub. "Hazırlıq müddətində sualtı fəaliyyət, sağqalma və təhlükəsizlik qaydaları ilə bağlı həm nəzəri, həm də praktiki biliklər əldə etdik. Burada qazandığım bacarıqların gələcək xidmətdə qarşıya qoyulacaq tapşırıqların icrasında faydalı olacağına inanıram. Kursu birinciliklə bitirməyim isə mənim üçün əlavə məsuliyyətdir".

"Təməl dalğıc kursu"nu ikinciliklə bitirən gizir İmran Əliyevin də fikirlərini öyrəndik. "Vətən müharibəsi və ondan sonrakı xidmət dövründə qazandığım təcrübə bu hazırlıq prosesində mənə kömək etdi. Bununla yanaşı, "Təməl dalğıc kursu" mənə yeni bilik və bacarıqlar qazandırdı. Hesab edirəm ki, hər bir hərbi qulluqçu xidmət etdiyi sahədən asılı olmayaraq daim öz üzərində çalışmalı və hazırlığını artırmalıdır".

Növbəti həmsöhbətimiz kurs üçüncüsü kiçik gizir Qurban Məmmədov bildirdi ki, idmanla uzun illər məşğul olmağı onun fiziki hazırlığına müsbət təsir göstərib. "Təlimlər zamanı həm fiziki, həm də praktiki sınaqlarda bunun faydasını gördüm. Hazırlıq kifayət qədər intensiv keçdi və hər mərhələ bizdən diqqət və məsuliyyət tələb edirdi. Kursu üçüncülüklə başa vurmağım göstərilən əməyin nəticəsidir".

Hərbi qulluqçularımızın səsləndirdiyi fikirlər onu deməyə əsas verdi ki, Hərbi Dəniz Qüvvələrində şəxsi heyətin peşə hazırlığının davamlı şəkildə inkişaf etdirilməsi komandanlığın diqqət mərkəzindədir. Onların belə ixtisas kurslarına cəlb olunması peşə bacarıqlarının artırılmasına və qarşıya qoyulan tapşırıqların daha yüksək səviyyədə yerinə yetirilməsinə xidmət edir. "Təməl dalğıc kursu"nu müvəffəqiyyətlə bitirən hərbi qulluqçularımızı təbrik edir, onlara çətin və şərəfli peşələrində uğurlar arzulayırıq.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin nümayəndə heyəti Türkiyəyə səfər edib








Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin nümayəndə heyəti Türkiyə Respublikasının Ankara şəhərinə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsi rəisinin müavini - Hərbi Polis İdarəsinin rəisi general-mayor Elgün Əliyev Türkiyə milli müdafiə naziri Yaşar Gülerlə görüşüb. Görüş zamanı tərəflər ölkələrimiz arasında olan dostluq və qardaşlıq əlaqələrinin hərbi polis sistemində də uğurla inkişaf etdiyini vurğulayıblar.



Proqrama uyğun olaraq nümayəndə heyəti Türkiyə Xüsusi Təyinatlı Qüvvələrin Komandanı və Xüsusi Təyinatlı Məktəbin rəisi ilə görüşüb. Görüşlərdə general-mayor E.Əliyev hərbi polis sisteminin inkişafında göstərdikləri dəstəyə görə minnətdarlığını ifadə edib.

Sonra nümayəndə heyəti Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrin nəzdində Azərbaycan Hərbi Polisinin "Yaxın Qoruma" bölməsi üçün təşkil olunan qoruma kursunun təlimtədris prosesi ilə tanış olublar.

Daha sonra Ankara Mərkəzi Komandanlığını ziyarət edən qonaqlara mərkəzi komandanlığın gündəlik fəaliyyəti və tətbiq olunan idarəetmə sistemləri haqqında brifinq təqdim olunub.

Səfərin yekununda Azərbaycan nümayəndə heyəti "Yaxın Qoruma" kursunun təntənəli bağlanış mərasimində iştirak edib. Mərasimdə hərbi qulluqçular kurs zamanı əldə etdikləri nəzəri və praktiki vərdişləri nümayiş etdiriblər.

Sonda kursu uğurla başa vuran hərbi polis nümayəndələrinə sertifikatlar verilib, hədiyyələr təqdim olunub.




## Hərbi qulluqçularımız İordaniyada təlimdə iştirak edirlər



*Azərbaycan Ordusunun xüsusi təyinatlıları İordaniya Haşimilər Krallığında keçirilən Terrorla Mübarizə və Xüsusi Əməliyyatlar üzrə "Zülfüqar" adlı birgə hərbi təlimdə iştirak edirlər.*

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi əməkdaşlıq və təlim proqramları çərçivəsində keçirilən təlimdə ölkəmizlə yanaşı, İordaniya Silahlı Qüvvələri - Ərəb ordusu Kral Abdullah II Xüsusi Təyinatlı Qüvvələri Komandanlığının şəxsi heyəti, eləcə də Türkiyə və Pakistanın xüsusi təyinatlıları iştirak edirlər.

Pilotsuz uçuş aparatları (PUA), müasir hərbi texnika və sistemlərdən istifadə edilməsi nəzərdə tutulan birgə təlimlərin ssenarisinə müxtəlif əməliyyat şəraitini simulyasiya edən bir sıra taktiki fəaliyyətlər daxildir.

İştirakçılar yaşayış məntəqələrində döyüş, girovların xilas edilməsi və antiterror əməliyyatları üzrə tapşırıqları icra edəcək, həmçinin müxtəlif çaplı silahlardan istifadə etməklə praktiki atışları yerinə yetirəcəklər.

Təlimin məqsədi bölmələrin əməliyyat imkanlarının artırılması, xüsusi təyinatlıların döyüş qabiliyyətinin inkişaf etdirilməsi, iştirakçı qüvvələr arasında birgə fəaliyyətlər zamanı koordinasiyanın gücləndirilməsi, eləcə də xüsusi əməliyyatlar sahəsində təcrübə mübadiləsinin təmin edilməsidir.

## "Ən yaxşı IT mütəxəssisi" adı uğrunda yarış keçirilib

*Azərbaycan Ordusunda "Ən yaxşı İnformasiya Texnologiyaları (IT) mütəxəssisi" adı uğrunda yarış keçirilib.*



Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin təsdiq etdiyi tədbirlər planına əsasən, iki mərhələ üzrə keçirilən yarışın əvvəlində hərbi qulluqçulara şərtlər izah olunub və kibertəhlükəsizlik qaydaları çatdırılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, çıxış edənlər iştirakçılara uğurlar arzulayaraq bildiriblər ki, Azərbaycan Ordusunun "Rəqəmsal Ordu" formatında inkişafı bölmələrin müasir texnologiyalarla daha çevik və effektiv idarə edilməsinə geniş imkanlar yaradır.

IT sahəsində ixtisaslaşmış hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması məqsədilə keçirilən yarışda zabitlərin nəzəri bilikləri test üsulu, praktiki bacarıqları isə virtual platformalar üzərində yoxlanılıb.

Sonda qaliblərə mükafatlar təqdim olunub.

## "Əkinçi" ilə başlanan müqəddəs yol hərbi mətbuatımızda da uğurla davam etdirilir



*1875-ci il iyulun 22-də görkəmli ziyalı, maarifçi və publisist Həsən bəy Zərdabinin təşəbbüsü ilə Azərbaycan dilində nəşrə başlayan "Əkinçi" qəzeti milli mətbuatımızın əsasını qoyaraq xalqımızın ictimai-siyasi və mədəni həyatında yeni mərhələnin başlanğıcını təmin etdi. Bununla da Azərbaycan xalqı öz ana dilində nəşr olunan ilk qəzetə qovuşdu və milli mətbuat tariximizin şanlı salnaməsinin ilk səhifəsi yazıldı.*

Cəmi iki il - 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabr ayınadək fəaliyyət göstərməsinə və yalnız 56 nömrəsinin işıq üzü görməsinə baxmayaraq, "Əkinçi" Azərbaycan milli mətbuatının formalaşmasında müstəsna rol oynadı. Qəzet milli oyanışın, maarifçiliyin və ictimai fikrin inkişafının aparıcı tribunası kimi qısa müddətdə həm ziyalılar, həm də geniş oxucu kütləsi arasında böyük nüfuz qazandı.

"Əkinçi"nin əsas missiyası cəmiyyətin maariflənməsinə, elmin, təhsilin və milli dəyərlərin təbliğinə xidmət etmək idi. Məhz bu fəaliyyət çar Rusiyası hakimiyyətini ciddi narahat etməyə başladı. Qəzetin xalqın ictimai-siyasi şüurunun formalaşmasına, milli özünüdərk hissinin güclənməsinə göstərdiyi təsir onun fəaliyyətinin məhdudlaşdırılması ilə nəticələndi və nəşri dayandırıldı. Lakin "Əkinçi"nin bağlanması onun yaratdığı ideyaların qarşısını ala bilmədi. Əksinə, "Əkinçi" Azərbaycan milli mətbuatının gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən möhkəm bir məktəbə çevrildi. Dövrün görkəmli maarifçiləri onun səhifələrində demokratik, humanist və maarifçi ideyaları təbliğ edərək ictimai, siyasi və bədii fikrin inkişafına mühüm töhfələr verdilər. Sonrakı illərdə nəşr olunan çoxsaylı qəzet və jurnallar da məhz "Əkinçi"nin açdığı yolun davamçıları oldular. Milli mətbuatımız Azərbaycan ədəbi dilinin inkişafında, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində əvəzsiz rol oynadı.

(Ardı 7-ci səhifədə)

# “Gələcəkdə həm peşəkar hərbçi, həm də savadlı mütəxəssis kimi Vətənimə layiqincə xidmət etmək istəyirəm”

*Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda xaricdə hərbi təhsil imkanlarına həsr olunan “Açıq qapı” günü keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, Türkiyə Respublikası Silahlı Qüvvələrinin təmsilçiləri, qəbul imtahanlarında yüksək nəticə göstərmiş abituriyentlər, onların valideynləri və media nümayəndələri iştirak etdilər.

Müdafiə Nazirliyinin rəhbərliyi adından iştirakçıları salamlayan polkovnik Rüstəm Ağayev çıxış edərək tədbirin əsas məqsədinin gəncləri xaricdə hərbi təhsil imkanları ilə yaxından tanış etmək, gələcəyini hərbi peşəyə həsr etmək istəyən abituriyentlərə düzgün seçim etmələri üçün ətraflı məlumat vermək olduğunu bildirdi.



Polkovnik R.Ağayev çıxış edərək qonaqları Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda keçirilən xaricdə hərbi təhsil imkanlarına həsr olunmuş “Açıq qapı” günündə salamladı. “Tədbirimizdə iştirak edən dost və qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrinin hörmətli nümayəndələrinə dəvətimizi qəbul etdiklərinə və hərbi təhsil sahəsində mövcud imkanları bizimlə bölüşəcəklərinə görə təşəkkürümü bildirirəm”.

Zabit bugünkü tədbirin məqsədinin qəbul imtahanlarında yüksək nəticə göstərmiş, gələcəyini Vətənə xidmətə həsr etmək istəyən gəncləri Azərbaycan və Türkiyənin hərbi təhsil imkanları ilə yaxından tanış etməkdən ibarət olduğunu vurğuladı: “Təqdimatlar zamanı Milli Müdafiə Universitetinin hərbi təhsil müəssisələri, qəbul qaydaları, tədris prosesi və xaricdə təhsil imkanları, eləcə də qardaş Türkiyənin hərbi ali təhsil müəssisələrində təhsil, ixtisaslar və kursantlara yaradılan şərait haqqında ətraflı məlumat veriləcək”.





Özünün də bakalavr təhsilini Türkiyə Respublikasının Kara Harp Okulunda aldığını bildirən polkovnik R.Ağayev bu təcrübənin onun peşəkar inkişafında mühüm rol oynadığını əminliklə bildirdi: “Xaricdə hərbi təhsil almaq yalnız bilik və bacarıqların artırılması deyil, həm də intizamın, liderliyin, məsuliyyət hissinin formalaşması və Azərbaycanı beynəlxalq mühitdə layiqincə təmsil etmək deməkdir.

Milli Müdafiə Universiteti müasir biliklərə, yüksək mənəvi keyfiyyətlərə və liderlik bacarıqlarına malik zabitlərin hazırlanmasına xüsusi önəm verir. Bu məqsədlə kursantlarımızın bilik və bacarıqları nəzərə alınaraq onların xarici ölkələrin nüfuzlu hərbi təhsil müəssisələrində təhsil almaları üçün geniş imkanlar yaradılır. İnanıram ki, bugünkü görüş gələcək peşə seçiminizdə sizə faydalı olacaq və hər birinizə uğurlu yol açacaq”, - deyə zabit çıxışını tamamladı.

Sonra iştirakçılara Milli Müdafiə Universitetinin fəaliyyəti, ali hərbi təhsil müəssisələrinin qəbul qaydaları, tədris prosesi, kursantların sosial təminatı, maddi-texniki bazası və beynəlxalq əməkdaşlıq istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verildi. Bildirildi ki, xüsusi təyinatlı təhsil müəssisələrində müasir standartlara cavab verən tədris infrastrukturu yaradılıb, kursantların peşəkar hazırlığı, fiziki inkişafı və liderlik keyfiyyətlərinin formalaşdırılması diqqət mərkəzində saxlanılır.

Qeyd olundu ki, qəbul imtahanlarında yüksək nəticə əldə etmiş abituriyentlər Milli Müdafiə Universitetinin beynəlxalq təhsil əməkdaşlığı proqramları çərçivəsində Türkiyə, Almaniya, İtaliya, Koreya və Çin kimi ölkələrin nüfuzlu ali hərbi təhsil müəssisələrində tam dövlət təminatı hesabına təhsil almaq imkanı qazanırlar. Xaricdə təhsil alan kursantlar müasir hərbi biliklərə yiyələnməklə yanaşı, beynəlxalq təcrübə qazanır, müttəfiq ölkələrin hərbi təhsil sistemini yaxından mənimsəyirlər.



Sonda media nümayəndələri üçün abituriyentlərdən müsahibələr alınması və çəkilişlərin aparılması məqsədilə münasib şərait yaradıldı.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra abituriyentlərlə həmsöhbət olduq.

Qəbul imtahanında III ixtisas qrupu üzrə 599 bal toplayan Əli Məmmədov tədbirlə bağlı təəssüratlarını bölüşərək bildirdi ki, təsadüf nəticəsində Milli Müdafiə Universitetində keçirilən “Açıq qapı” günü haqqında məlumat əldə etdik və atamla birlikdə tədbirdə iştirak etmək qərarına gəldik. “Tədbir çərçivəsində universitetin tədris imkanları, maddi-texniki bazası və təhsil prosesi ilə yaxından tanış olduq. Bizə təqdim olunan videoçarxları izlədik, universitet rəhbərliyi və əməkdaşları tərəfindən verilən ətraflı məlumatlar sayəsində maraq doğuran suallarımızın demək olar ki, hamısına cavab tapa bildik. Tədbir universitet barədə məndə çox müsbət təəssürat yaratdı. Bildirildi ki, təhsil müddətində və ya sonrakı mərhələlərdə xaricdə təhsil və ixtisasartırma imkanları da mövcuddur. Bu məlumatlar mənim universitetə marağımı daha da artırdı. Qəbul imtahanında yüksək nəticə göstərdiyim üçün ümid edirəm ki, qəbul zamanı bu institutda təhsil almaq imkanım olacaq. Gələcəkdə həm peşəkar hərbçi, həm də savadlı mütəxəssis kimi Vətənimə layiqincə xidmət etmək istəyirəm”.



Dövlət İmtahan Mərkəzinin blok imtahanında 620 bal toplayan Sədi Əhmədov isə tədbirin gələcək təhsil planlarının formalaşmasına mühüm töhfə verdiyini vurğuladı. “Mən, Dövlət İmtahan Mərkəzinin blok imtahanında yüksək bal toplamışam. Milli Müdafiə Universitetində təşkil olunan “Açıq qapı” günü tədbiri zamanı universitetin təhsil imkanları, qəbul qaydaları və gələcək perspektivləri barədə ətraflı məlumat əldə etdim. Təqdim olunan məlumatlar və nümayiş etdirilən materiallar mənim üçün olduqca faydalı oldu. Gələcəkdə IV ixtisas qrupu üzrə təhsilimi Türkiyədə tibb fakültəsində davam etdirmək istəyirəm. Bu istiqamətdə Milli Müdafiə Universitetinin təqdim etdiyi imkanlar və beynəlxalq əməkdaşlıq perspektivləri məndə böyük maraq yaratdı. İnanıram ki, burada qazanacağım bilik və təcrübə gələcək hədəflərimə çatmağımda mühüm rol oynayacaq”.

Türkiyədə hərbi təhsil almaq niyyətində olduğunu bildirən Ömər Məmmədli də tədbirin onun üçün faydalı olduğunu qeyd etdi. “Qəbul imtahanında 580 bal toplamışam. Bu gün təşkil olunan tədbirdə iştirak edərək, xüsusilə Türkiyə Respublikasının Milli Müdafiə Universitetində təhsil imkanları ilə maraqlandım. Tədbir zamanı “Aerokosmik mühəndisliyi” ixtisası və xaricdə təhsil perspektivləri barədə ətraflı məlumat əldə etdim, həmçinin qəbul və qeydiyyat prosesi ilə bağlı maraqlandığım suallara cavab aldım. Bu imkanlar gələcək təhsil planlarım baxımından məndə böyük maraq yaratdı”.

Azərbaycan dövlətinin hərbi təhsilin inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində Milli Müdafiə Universitetində müasir standartlara cavab verən tədris mühiti formalaşdırılıb. Maddi-texniki bazanın davamlı gücləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və xaricdə təhsil imkanlarının artırılması gələcəyin peşəkar zabitlərinin hazırlanmasına mühüm töhfə verir.



Güclü ordu, ilk növbədə, peşəkar hərbi təhsil üzərində qurulur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun, o cümlədən hərbi təhsil sahəsinin inkişafı istiqamətində məqsədyönlü, düşünülmüş islahatlar həyata keçirilir. Əminik ki, bu gün gənclər üçün yaradılan geniş imkanlar gələcəkdə milli hərbi kadr potensialının daha da möhkəmlənməsinə, ordumuzun qüdrətinin və döyüş hazırlığının yüksəldilməsinə xidmət edəcək.

**Baş leytenant
Əli ABIYEV
“Azərbaycan Ordusu”**

*22 İyul - Milli Mətbuat Günü*

# “Əkinçi” ilə başlanan müqəddəs yol hərbi mətbuatımızda da uğurla davam etdirilir

(Əvvəli 5-ci səhifədə)

Beləliklə, əsası Həsən bəy Zərdabi tərəfindən qoyulan milli mətbuat ənənələri zaman keçdikcə daha da zənginləşərək müasir Azərbaycan mediasının formalaşmasını əsasını təşkil etdi. Tarixin müxtəlif mərhələlərində ciddi sınaqlarla üzləşsə də, Azərbaycan mətbuatı öz milli mövqeyini, ictimai məsuliyyətini və maarifçilik missiyasını qoruyub saxladı.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra milli mətbuatın inkişafı üçün tamamilə yeni mərhələ başlandı. Xüsusilə ötən əsrin 90-cı illərinin ikinci yarısından etibarən ölkədə demokratik dəyərlərin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində həyata keçirilən islahatlar medianın fəaliyyətinə də yeni nəfəs verdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı dövlət quruculuğu siyasəti nəticəsində cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, mətbuatın inkişafı istiqamətində də mühüm addımlar atıldı. Söz və məlumat azadlığını məhdudlaşdıran maneələr aradan qaldırıldı, medianın sərbəst fəaliyyətini təmin edən mütərəqqi qanunvericilik bazası yaradıldı, media subyektlərinin iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi və cəmiyyətdə rolunun artırılması istiqamətində ardıcıl islahatlar həyata keçirildi.

Ulu Öndərin müəyyənləşdirdiyi media siyasətinin əsasını söz azadlığının təmin olunması, demokratik dəyərlərin möhkəmləndirilməsi və müstəqil medianın inkişafı təşkil edirdi. Təsadüfi deyil ki, jurnalistlər tərəfindən “Jurnalistlərin dostu” adlandırılan Dahi Lider ölkənin müharibə şəraitində olmasına baxmayaraq, medianın azad fəaliyyətini dövlət quruculuğunun mühüm şərtlərindən biri hesab edirdi. Bu siyasi iradənin məntiqi nəticəsi olaraq əvvəlcə hərbi senzura, 1998-ci ilin avqustunda isə kütləvi informasiya vasitələri üzərində dövlət senzurası tamamilə ləğv edildi. Bu mühüm qərar Azərbaycanda demokratik medianın inkişafında yeni mərhələnin əsasını qoydu. Söz və mətbuat azadlığının təmin olunması, qəzet və jurnalların sayının artması, yeni informasiya resurslarının yaranması ölkədə sağlam informasiya mühitinin formalaşmasına geniş imkanlar açdı. Mətbuat artıq cəmiyyətin obyektiv məlumatlandırılmasında, ictimai rəyin formalaşmasında və dövlət-vətəndaş münasibətlərinin inkişafında mühüm institutlardan birinə çevrildi.

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi bu strateji xətt Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildi və yeni dövrün tələblərinə uyğun şəkildə daha da zənginləşdirildi. Dövlətimizin başçısının rəhbərliyi ilə media sahəsində ardıcıl islahatlar həyata keçirildi, informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi, peşəkar jurnalistikanın inkişafı və media subyektlərinin dayanıqlı fəaliyyətinin təmin olunması istiqamətində mühüm addımlar atıldı. Bu siyasətin mühüm tərkib hissəsi kimi “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası” qəbul edildi. Konsepsiya milli medianın inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə, jurnalist peşəsinin nüfuzunun artırılmasına və müasir informasiya çağırışlarına uyğun fəaliyyət göstərməsinə geniş imkanlar yaratdı.

Qlobal informasiya məkanında baş verən sürətli dəyişikliklər, rəqəmsallaşma və yeni kommunikasiya vasitələrinin meydana çıxması media sahəsində hüquqi




bazanın da müasirləşdirilməsini zəruri edirdi. Bu məqsədlə Prezident İlham Əliyevin 12 yanvar 2021-ci il tarixli “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi publik hüquqi şəxsi yaradıldı.

Medianın İnkişafı Agentliyi qısa müddət ərzində çap və onlayn medianın inkişafı, media subyektlərinin iqtisadi dayanıqlığının artırılması, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, innovativ media layihələrinin dəstəklənməsi və milli informasiya məkanının təhlükəsizliyinin təmin olunması istiqamətində uğurlu fəaliyyət göstərməyə başladı.

Media sahəsində aparılan islahatların mühüm nəticələrindən biri də 30 dekabr 2021-ci ildə qəbul edilmiş “Media haqqında” Azərbaycan Respublikası Qanunu oldu. Bu qanun media fəaliyyətinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən etməklə yanaşı, informasiyanın əldə olunması, hazırlanması, yayılması və istehsalı sahəsində vahid hüquqi mexanizmləri formalaşdırdı. Qanunun əsas məqsədi ölkənin informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi, sağlam rəqabət mühitinin yaradılması, milli medianın inkişafının sürətləndirilməsi və jurnalist peşəsinin nüfuzunun daha da yüksəldilməsidir.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı Azərbaycan mediasını qlobal informasiya məkanının ayrılmaz tərkib hissəsidir. Çap mediası ilə yanaşı, elektron media, xəbər portalları və sosial platformalar da operativ informasiya mübadiləsinin əsas vasitələrinə çevrilmişdir. Bu gün Azərbaycan jurnalistləri beynəlxalq təlim proqramlarında, forumlarda və peşəkar inkişaf layihələrində fəal iştirak edərək müasir jurnalistikanın çağırışlarına uyğun bilik və bacarıqlarını daim təkmilləşdirirlər.

Azərbaycan Respublikasının Konstitusiyasında söz və mətbuat azadlığının fundamental hüquq kimi təsbit olunması, dövlət tərəfindən medianın inkişafına göstərilən sistemli dəstək və jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi milli mətbuatın davamlı inkişafını təmin edən əsas amillərdəndir. Mətbuat işçilərinin fəxri adlarla təltif olunması, sosial layihələrin həyata keçirilməsi və dövlət mükafatları ilə qiymətləndirilməsi bu sahəyə göstərilən yüksək diqqətin bariz nümunəsidir.

Milli mətbuatın inkişafına göstərilən bu ardıcıl dövlət qayğısının nəticəsidir ki, Ümummilli Lider Heydər Əliyev 2002-ci ildə, Prezident İlham Əliyev isə 2010, 2013, 2017 və 2018-ci illərdə “Ruh” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi “Jurnalistlərin dostu” mükafatına layiq görülmüşlər. Bu ali qiymət dövlət-media münasibətlərinin qarşılıqlı etimada, açıq dialoqa və milli maraqlara söykəndiyini bir daha təsdiq edir.

Müasir dövrdə medianın üzərinə düşən məsuliyyət təkcə xəbərin operativ çatdırılması ilə məhdudlaşmır. İnformasiya məkanının qlobal rəqabət meydanına çevrildiyi, dezinformasiya və saxta xəbərlərin geniş yayıldığı bir şəraitdə media dövlətçilik maraqlarının qorunmasında, milli həmrəyliyin möhkəmləndirilməsində və cəmiyyətin düzgün məlumatlandırılmasında mühüm strateji missiya daşıyır. Bu baxımdan Azərbaycan jurnalistikası hər zaman peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə sadiq qalaraq ölkəmizin milli maraqlarının müdafiəsində ön sıralarda yer alıb.

Xüsusilə Birinci və İkinci Qarabağ müharibələri dövründə Azərbaycan mediası üzərinə düşən tarixi məsuliyyəti layiqincə yerinə yetirib. Mətbuat nümayəndələri döyüş bölgələrindən operativ məlumatlar çatdırmaqla yanaşı, Ermənistanın dezinformasiya kampaniyalarına qarşı informasiya cəbhəsində də qətiyyətlə mübarizə aparıb, dünya ictimaiyyətinə Azərbaycan həqiqətlərinin çatdırılmasına mühüm töhfələr veriblər. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan jurnalistləri yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirərək cəbhə bölgələrindən hazırladıqları reportajlarla, analitik yazılar və videomateriallarla xalqımızın Zəfər salnaməsinin canlı şahidlərinə çevrildilər. Onların operativ fəaliyyəti nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qazandığı tarixi qələbələr, hərbçilərimizin qəhrəmanlığı və torpaqlarımızın işğaldan azad olunması həm ölkə, həm də beynəlxalq ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırıldı.

Müharibədən sonrakı dövrdə də Azərbaycan mediası informasiya cəbhəsində fəaliyyətini eyni qətiyyətlə davam etdirərək işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin, Böyük Qayıdış Proqramının, eləcə də Qarabağ və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafının erməni işğalının vurduğu ziyanın aradan qaldırılması, minalardan təmizlənmə prosesinin işıqlandırılmasına xüsusi diqqət yetirib. Dövlətimizin başçısının Qarabağın inkişafı, regional təhlükəsizlik və sülh gündəliyi ilə bağlı mesajlarının dünya ictimaiyyətinə çatdırılması da medianın əsas fəaliyyət istiqamətlərindən biridir.

Milli mətbuatımızın bu şərəfli missiyasında Azərbaycanın hərbi mətbuatı da özünəməxsus yer tutur. Uzun illərdir fəaliyyət göstərən, Müdafiə Nazirliyinin mətbu orqanı olan “Azərbaycan Ordusu” qəzeti ordu quruculuğu sahəsində həyata keçirilən islahatları, döyüş hazırlığını, şəxsi heyətin xidmət fəaliyyətini və qəhrəmanlıq nümunələrini sistemli şəkildə işıqlandıraraq hərbi jurnalistikanın aparıcı tribunasına çevrilib.

Qəzet yalnız hərbi xəbərləri oxucuya çatdıran informasiya vasitəsi deyil, həm də Azərbaycan Ordusunda vətənpərvərlik ruhunun möhkəmləndirilməsinə, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının gücləndirilməsinə, gənc nəslin Vətənə sədaqət ruhunda tərbiyəsinə xidmət edən mühüm ideoloji məktəbdir. Onun səhifələrində dərc olunan yazılar, müsahibələr, reportajlar və publisistik materiallar Azərbaycan Ordusunun keçdiyi şərəfli inkişaf yolunu, qazandığı uğurları və qəhrəmanlıq salnaməsini gələcək nəsillər üçün etibarlı mənbə kimi yaşadır.

44 günlük Vətən müharibəsi və sonrakı dövrdə “Azərbaycan Ordusu” qəzeti informasiya cəbhəsində də üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib, ordumuzun uğurlarını, hərbi qulluqçularımızın qəhrəmanlıq nümunələrini, şəhidlərimizin əziz xatirəsini və döyüşlərdə sağlamlıqlarını itirənlərin fədakarlığını geniş şəkildə işıqlandırıb.

Azərbaycan mediasının beynəlxalq nüfuzunun yüksəldilməsində Şuşa Qlobal Media Forumlarının da xüsusi əhəmiyyəti vardır. 2023-cü ildə “4-cü Sənaye İnqilabı dövründə Yeni Media”, 2024-cü ildə “Yalan məlumatların ifşası: dezinformasiyaya qarşı mübarizə”, 2025-ci ildə “Rəqəmsal keçidlər: süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzularında keçirilən forumlar media sahəsində qlobal çağırışların müzakirə olunduğu nüfuzlu beynəlxalq platformaya çevrilib. Bu ənənə 2026-cı ildə keçirilən IV Şuşa Qlobal Media Forumunda da uğurla davam etdirilib. “Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması” mövzusuna həsr olunan forum çərçivəsində də aktual məsələlər geniş müzakirə edilib.

Bütün bunlar bir daha göstərir ki, müasir Azərbaycan mediası artıq təkcə ölkədaxili informasiya məkanının deyil, beynəlxalq media mühitinin də fəal iştirakçısına çevrilib. İnanırıq ki, milli mətbuatımız dövlətçilik maraqlarına sadiq qalaraq, müasir texnologiyaların imkanlarından səmərəli istifadə etməklə, informasiya təhlükəsizliyinin təmin olunmasına, dezinformasiyaya qarşı mübarizəyə və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına bundan sonra da mühüm töhfələr verməyə davam edəcəkdir.

Mətbuatımızın qabaqcıl və mütərəqqi ənənələrə əsaslanmaqla, xalqımızın tarixi-milli dəyərlərini qorumaqla inkişaf etməsini vacib sayan Prezident İlham Əliyev söz və mətbuat azadlığını demokratik cəmiyyətin fundamental prinsiplərindən biri kimi qiymətləndirərək bildirib: “Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda, o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur”.

Bu gün 151 illik şərəfli inkişaf yolu keçən Azərbaycan milli mətbuatı “Əkinçi”-nin ideallarına sadiq qalaraq müasir dövrün çağırışlarına uyğun inkişaf edir. Rəqəmsallaşma, süni intellekt, informasiya təhlükəsizliyi və qlobal media rəqabəti yeni vəzifələr müəyyənləşdirsə də, milli mətbuatımızın əsas missiyası dəyişməz olaraq qalır - cəmiyyəti doğru, operativ və obyektiv informasiya ilə təmin etmək, dövlətçilik maraqlarını qorumaq, milli həmrəyliyin möhkəmlənməsinə xidmət etmək və Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq.

“Əkinçi” ilə başlanan müqəddəs söz yolu bu gün müasir Azərbaycan mediasında, o cümlədən hərbi mətbuatımızda da uğurla davam etdirilir. Bu yol xalqımızın milli yaddaşını yaşadan, dövlətimizin gücünü və qələbələrini tarixə həkk edən şərəfli yoldur. Əminliklə demək olar ki, milli mətbuatımız bundan sonra da peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə sadiq qalaraq, Azərbaycanın milli maraqlarının qorunmasına, cəmiyyətimizin tərəqqisinə və dövlətimizin informasiya təhlükəsizliyinin təmin edilməsinə layiqli töhfələr verməyə davam edəcəkdir.

**Baş leytenant**
**Elçin İMANOV**
**“Azərbaycan Ordusu”**

# Qəhrəmanlıq ənənəsini yaşadan Azərbaycan qadınları

(Əvvəli 1-ci səhifədə)

Filmlərdə gördüklərimiz isə bu peşənin yalnız kiçik bir hissəsidir. Real həyatda snayperlər soyuqqanlı, qətiyyətli və yüksək hazırlıqlı hərbi qulluqçulardır. Azərbaycan tarix boyu igid döyüşçülər yurdu olub. Əcdadlarımız Vətəni qorumağı, torpağı uğrunda döyüşməyi yaxşı biliblər. Bu gün də həmin döyüş ruhu Azərbaycan Ordusunun sıralarında yaşayır.

Snayper olmaq sadəcə peşə deyil, bu, böyük iradə, səbir və Vətən qarşısında yüksək məsuliyyət tələb edən bir missiyadır. Tariximizin qızıl səhifələrinə nəzər saldıqda bu çətin və şərəfli missiyanı çiyinlərində daşıyan fədakar simaların izinə rast gəlirik. Belə unudulmaz qəhrəmanlardan biri də adını dünya hərb tarixinə yazdırmağı bacarmış həmyerlimiz, əfsanəvi snayper Ziba Paşa qızı Qəniyevadır. 20 may 1923-cü ildə qədim Şamaxı torpağında dünyaya göz açan bu cəsur Azərbaycan qadını erkən yaşlarından daxilindəki məğrurluğu və vətənpərvərliyi ilə seçilib. Gənclik illərində Moskvada teatr sənəti üzrə təhsil alaraq incəsənət zirvələrinə ucalmağı hədəfləsə də, 1941-ci ildə başlayan Böyük Vətən müharibəsi onun taleyini səhnələrdən birbaşa amansız döyüş meydanlarına aparıb. Ziba Qəniyeva tərəddüd etmədən könüllü olaraq cəbhəyə yollanıb, mürəkkəb atıcılıq və kəşfiyyat kurslarını fərqlənmə ilə bitirərək ön xətdə fəaliyyətə başlayıb.

Müharibənin ən ağır, qanlı illərində o, təkcə səbri və dəqiqliyi ilə deyil, həm də analitik zəkası ilə seçilən mükəmməl bir hərbi qulluqçuya çevrilib. Şaxtalı qış günlərində, keçilməz meşələrdə saatlarla hərəkətsiz qalaraq düşməni pusquya salan Ziba Qəniyeva rəsmi məlumatlara görə qısa müddətdə 129 faşist işğalçısını təkbaşına zərərsizləşdirib. Leninqrad cəbhəsində radio vasitəsilə artilleriya atəşini birbaşa düşmən mövqelərinə yönəldən kəşfiyyatçı kimi böyük şücaət göstərib. 1942-ci ildə aldığı ağır yaradan sonra cəbhə xəttindən uzaqlaşsa da, göstərdiyi misilsiz rəşadətə görə "Qırmızı Bayraq" və "Qırmızı Ulduz" ordenləri ilə təltif edilib. Müharibədən sonra elmi fəaliyyətlə məşğul olub, professor dərəcəsinə yüksələn bu böyük şəxsiyyət



Azərbaycan qadını həm elm, həm də hərbi sahədə nələrə qadir olduğunu bütün dünyaya sübut edib.

Ziba Qəniyevanın canı və qanı bahasına qoyduğu bu şanlı hərb ənənəsi müasir dövrümüzdə daha uca zirvələrə daşınmaqdadır. Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçular peşəkarlığı, məsuliyyəti və Vətənə sədaqəti ilə seçilirlər. Onlar müxtəlif qoşun növlərində xidmət edərək üzərlərinə düşən vəzifələri yüksək hazırlıq və intizamla yerinə yetirirlər. Hərbi təhsil, davamlı hazırlıq və qazandıqları təcrübə onların xidmət fəaliyyətində mühüm rol oynayır.

Qadın hərbi qulluqçular gündəlik xidmətdə kollektiv işin təşkili, hərbi intizamın qorunması və qarşıya qoyulan tapşırıqların icrasında fəal iştirak edirlər. Onların peşəkar fəaliyyəti Azərbaycan Ordusunun şəxsi heyətinin fərdi inkişafına, xidmətin keyfiyyətinin yüksəldilməsinə və hərbi kollektivdə sağlam iş mühitinin formalaşmasına öz töhfəsini verir.

2025-ci ildən etibarən uzun illərdən sonra Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetində yenidən qadın kursantların qəbuluna başlanılıb. Bu addım peşəkar zabit kadrlarının hazırlanması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsi olmaqla yanaşı, gələcəkdə Azərbaycan Ordusunda xidmət edəcək qadın zabitlərin hazırlanmasına da mühüm töhfə verir.

Tarix sınağa çəkildiyi hər məqamda Azərbaycan qadını zərifliyinin arxasında dayanan polad iradəni və sarsılmaz döyüş ruhunu aydın şəkildə nümayiş etdirmişdir. Keçmişdən gələn qəhrəmanlıq mirasımız müasir ordumuzun intizamı və qüdrəti ilə birləşərək gələcək nəsillər üçün real and yerinə çevrilir. Nəfəsini Vətən naminə saxlayan, gözünü qırpmadan düşmən üzərinə yönəldən, hər an ayıq-sayıq olan hərbi qulluqçularımız sayəsində torpaqlarımız bu gün azad və əmin əllərdədir. Səssizliyin içində yazılan bu qəhrəmanlıq dastanları ordumuzun sarsılmaz gücünün və Vətənə olan sonsuz sevginin təzahürüdür.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**



***Tikdim ki, izim qala...***

# Tarixin daş yaddaşı: "Gələrsən-görərsən" qalası

(Əvvəli 1-ci səhifədə)

Buna baxmayaraq, bütün araşdırmaların ortaq qənaəti ondan ibarətdir ki, qala XVI əsrin əvvəllərindən etibarən Şəki bölgəsinin müdafiəsində mühüm rol oynayıb və sonrakı dövrlərdə də bu funksiyasını qoruyub saxlayıb. Tarixi mənbələrdə qalanın əvvəlki adının "Qız qalası" və ya "Qızlar qalası" olduğu göstərilir. "Gələrsən-görərsən" adı isə XVIII əsrdə baş vermiş hadisələrlə əlaqələndirilir. Məlum olduğu kimi, 1743-cü ildə Nadir şah Şəkiyə yürüş etmiş, bölgədə ciddi müqavimətlə qarşılaşmışdı. Xalq arasında yayılan rəvayətə görə, qalanın alınmasının mümkün olub-olmadığını soruşan Nadir şaha "Gələrsən, görərsən" cavabı verilmiş, sonralar bu ifadə istehkamın adına çevrilmişdir. Tarixçilər bu hadisənin bütün təfərrüatlarını sənədlərlə təsdiqləməsələr də, qalanın bugünkü adının həmin dövrün yaddaşından qaynaqlandığını qəbul edirlər. "Gələrsən-görərsən" qalasının ən diqqətçəkən xüsusiyyətlərindən biri onun yerləşdiyi relyefdir. Qala üç tərəfdən sıldırım qayalarla əhatə olunur. Yalnız bir istiqamətdən qalaya yaxınlaşmaq mümkündür ki, bu da müdafiə baxımından mühüm üstünlük yaradırdı. Orta əsrlərdə müdafiə istehkamlarının qurulması zamanı təbii maneələrdən istifadə əsas prinsiplərdən biri hesab edilirdi. Bu baxımdan "Gələrsən-görərsən" qalası dövrünün hərbi mühəndislik təcrübəsini əks etdirən uğurlu nümunələrdən biridir. Qalanın tikintisində əsasən yerli qaya daşlarından istifadə olunmuşdur. Divarlar relyefin formasına uyğun inşa edilmiş, bürclər isə müşahidə və müdafiə məqsədilə əlverişli nöqtələrdə yerləşdirilmişdir.

Bu planlaşdırma təsadüfi deyildi. Qalanın yerləşdiyi yüksəklikdən Kiş dərəsi və ona aparan yollar aydın görünürdü. Beləliklə, yaxınlaşan təhlükəni əvvəlcədən müəyyən etmək və müdafiəni təşkil etmək mümkün olurdu. Qalanın memarlıq üslubunda görünüşdən daha çox praktik məqsədlər üstün tutulmuşdur. Dağların seçimi, divarların qalınlığı, giriş hissəsinin məhdudlaşdırılması və bürclərin yerləşdirilməsi onun uzunmüddətli müdafiəsi üçün nəzərdə tutulduğunu göstərir.

"Gələrsən-görərsən" qalasının memarlıq xüsusiyyətləri onun inşa edildiyi təbii mühitlə sıx bağlıdır. Divarlar düz xətt üzrə deyil, dağın təbii formasını izləyəcək şəkildə salınmışdır. Bu üsul həm tikintini asanlaşdırır, həm də istehkamın müdafiə qabiliyyətini artırırdı. Düşünürük ki, belə planlaşdırma orta əsr Azərbaycan qalalarının səciyyəvi xüsusiyyətlərindən biri hesab olunur. İstehkamın əsas hissəsi müdafiə divarlarından, bürclərdən və daxili həyətdən ibarət idi. Bu gün həmin tikililərin yalnız bir hissəsi salamat qalsa da, qalıqlar qalanın ilkin quruluşu haqqında müəyyən təsəvvür yaradır. Divarların irihəcmli yerli daşlardan hörülməsi onların uzun müddət təbii təsirlərə davam gətirməsinə şərait yaratmışdır. Əhəng məhlulundan istifadə isə daşların bir-birinə möhkəm bağlanmasını təmin edirdi. Tikinti materialının ərazidən götürülməsi tikilinin ətraf mühitlə ahəng təşkil etməsinə imkan verirdi.

Qalanın müdafiə sistemində bürclər xüsusi yer tuturdu. Onlar yalnız müşahidə məntəqəsi kimi deyil, həm də müdafiənin əsas dayaq nöqtələri kimi nəzərdə tutulmuşdu. Bu, müdafiəçilərə yaxınlaşan qüvvələri əvvəlcədən müəyyən etməyə və zəruri tədbirlər görməyə imkan verirdi. Orta əsrlərdə geniş yayılmış belə müdafiə üsulu say üstünlüyünə malik qoşunların hərəkət imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı. Qalanın giriş hissəsinin dar olması da təsadüfi deyildi. Müdafiə memarlığında girişlərin mümkün qədər məhdud saxlanılması əsas prinsiplərdən biri hesab olunurdu. Bu, hücum edən tərəfin eyni vaxtda çoxsaylı qüvvə ilə qalaya daxil olmasının qarşısını alırdı. Girişə nəzarət edən müdafiəçilər nisbətən az sayda olsalar belə, əlverişli mövqe sayəsində ciddi üstünlük əldə edirdilər. Məhz buna görə "Gələrsən-görərsən" qalasının yerləşdiyi təbii şərait və memarlıq üslubu bir-birini tamamlayan müdafiə sistemi formalaşdırmışdı. XVIII əsrdə Azərbaycanda siyasi vəziyyət mürəkkəb idi. Səfəvi dövlətinin zəifləməsindən sonra bölgədə müxtəlif siyasi qüvvələr arasında hakimiyyət uğrunda mübarizə güclənmişdi. Bu şəraitdə Şəki də mühüm siyasi mərkəzlərdən birinə çevrilmişdi. Belə dövrdə möhkəm müdafiə istehkamlarının mövcudluğu təkcə hərbi deyil, həm də siyasi baxımdan əhəmiyyət daşıyırdı. "Gələrsən-görərsən" qalası bu dövrdə Şəki hakimi Hacı Çələbi xanın əsas müdafiə məntəqələrindən biri kimi tanınır. Tarixi mənbələr göstərir ki, qala uzunmüddətli müqavimət üçün əlverişli şəraitə malik idi. Burada müdafiəçilərin müəyyən müddət ərzində mövqe saxlaya bilməsi, ilk növbədə, qalanın yerləşdiyi coğrafi mövqedən irəli gəlirdi. Qala yalnız konkret bir tarixi hadisənin xatirəsi deyil, həm də müxtəlif dövrlərdə formalaşmış müdafiə ənənələrinin, tikinti təcrübəsinin və mühəndislik düşüncəsinin günümüzə gəlib çatan nümunəsidir. Bu qala Azərbaycanın memarlıq və hərb tarixinin mühüm bir hissəsinin gələcək nəsillərə çatdırılması baxımından da əhəmiyyətlidir.



**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

Baş miçman Cəfərov Rövşən Ayaz oğluna verilmiş SQ №0019444 nömrəli və miçman Abdullayev Tural Oruc oğluna verilmiş SQ № 0021711 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baxşıyev Vasif Tofiq oğluna verilmiş MV № 123824 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | baş leytenant Əli ABIYEV | Lisenziya № 361 Sifariş № 661 Nüsxə 3653 |